

**Sivilizasiyamızın bu günkü inkişaf mərhələsində insan amili, insanın mənəvi və fiziki inkişafı məsələsi, bu problemin onu əhatə edən aləmdə baş verən neqativ və pozitiv proseslərlə qarşılıqlı tərzdə həll edilməsi mühüm və olduqca böyük aktuallıq kəsb edən problemlərdəndir.**

# Qərb mədəniyyətşünaslığında mədəniyyətin mənimsənilməsi problemləri

• **Tamilla ƏHMƏDOVA,**
***fəlsəfə doktoru, ADMİU-nun dosenti***

***Ümumiyyətlə, "insan problemi" həmişə elmin müxtəlif sahələrdə - fəlsəfə, sosiologiya, pedaqogika, psixologiya və s. - çalışan alimləri daim düşündürmüş, onların diqqət mərkəzində olmuşdur.***

İnsanı ən ali dəyər kimi qiymətləndirilməsi yaşadığımız dövrün ən əsas kulturoloji probleminə çevrilmişdir. Mədəniyyət isə burada şəxsiyyətin inkişafını təmin edən əsas amil kimi çıxış edir. Bu məsələnin müsbət həlli - dövrümüzün əsas paradiqmalardandır və bu işdə insanşünaslığın üç sahəsi - psixologiya, pedaqogika və tətbiqi kulturologiya - insan və mədəniyyət fenomeninin elmi dərki prosesinin vacib istiqamətləridir.

Çağdaş insan həyatının bütün sahələri üzrə (davranış və ünsiyyət mədəniyyəti, nitq mədəniyyəti, əxlaqi mədəniyyət, estetik mədəniyyət, idarəetmə mədəniyyəti, siyasi mədəniyyət, hüquqi mədəniyyət, ekoloji mədəniyyət və s.) dövrümüzün mədəniyyət norma və qanunlarına uyğun yaşamağa yiyələnməli, onları özündə tərbiyə etməli və gələcək nəsillərə ötürməlidir.

Bu problem - tətbiqi kulturologiya problematikasına daxil olan vacib problemlərdəndir.

Müasir sosial həyat, ilk növbədə, elmi-texniki tərəqqilə bağlıdır. Bu prosesin dinamikliyi isə beynəlxalq əlaqələrin genişlənməsi, media vasitələrinin - kompüter texnologiyalarının, internetin, peyk televiziyasının, sənayenin süni intellekt vasitələrilə zənginləşdirilməsi - qloballaşma dövrünün aktual problemlərindən olan bəşəri mədəniyyətinin formalaşması ilə nəticələnməlidir.

Yaranmış yeni şəraitdə mədəniyyətin məzmununu və mahiyyətini, tarixi inkişaf prosesində onun rolunu və mövqeyini müəyyənləşdirən tədqiqatlarla yanaşı, insanın mədəniyyətə cəlb edilməsi yolları və vasitələrini müəyyən edən problemlər də ciddi surətdə araşdırılmalıdır. Alimlər qloballaşma prosesləri ilə bağlı yarana biləcək situasiyalarda bir çox təhlükəli məqamları - milli-mədəni ənənələrin assimilyasiyası, milli mədəniyyətdə varisliyin itirilməsi - qeyd edirlər. Bütün bu genişmiqyaslı məsələlərin həlli, ilk növbədə, insan amililə, insanı yeni şəraitdə yaşamaq və yaratmaq problemilə bağlıdır.

Dünya mədəniyyətinin formalaşması və inkişafı prosesi, ümumi baxımdan mütərəqqi prosesdir. Lakin bu prosesdə həm də olduqca mürəkkəb və ziddiyyətli hadisələr baş verməkdədir. Bu, hər şeydən öncə, sosial fəaliyyətə aiddir.

Yaşadığımız mədəni mühitdə insan fəaliyyətinin təcəssümünün tarixən formalaşmış üslub və vasitələrinin müxtəlifliyinin inteqrasiyası onun mürəkkəbliyinin səbəbi olmuşdur. Kütləvi informasiya vasitələri mədəniyyəti - elmi yenilikləri, incəsənəti, idman yeniliklərini yaymaqla yanaşı, kifayət qədər əksmədəniyyətin müxtəlif nümunələrini qəzet və jurnalların səhifələrində, televiziya ekranında əks etdirir.

Yaranmış vəziyyətdə kulturologiyanın əsas vəzifəsi insanları mədəniyyətə cəlb etməkdən ibarətdir.

Mədəniyyətdən istifadə etmə, mədəni yaradıcılıq və mədəni sferanın idarə olunması proseslərinin desentralizasiyası şəraitində vahid mədəni siyasətin qeyri-ənənəvi proqram-tənzimləyəci mexanizminin yaradılması zərurəti meydana çıxır. Bu cür mexanizm mədəniyyət prosesinin fundamental plüralizmi ilə mədəniyyətə layihə-proqram (yaxud, proqram tənzimləyici) münasibət arasında optimal mütənasibliyi təmin edə bilər.

XXI əsr şəxsiyyətinin yaradıcı potensialının həyata tətbiq edilməsi və insan mədəniyyətinin daha da yüksəklərə qaldırılması zərurəti bir sıra mühüm amilləri nəzərdə tutur. Bunlardan şəxsiyyət mədəniyyətinin formalaşdırılmasının mövcud sisteminin köklü surətdə dəyişdirilməsi, müasir pedaqogikada funksional mədəniyyət prinsipinin tətbiq edilməsini qeyd etmək olar.

Sosial-mədəni aktivliyin mühüm aspektləri X.Ortega-i-Qasetin fəlsəfi və kulturoloji əsərlərində öz əksini tapmışlar. Bu problem - sosial-mədəni aktivliyin inkişafı prorblemi - vətəndaş cəmiyyətinin yaradılması probleminin həll edilməsi yolunda mühüm pozitiv nəticələri verməyə qadirdir.

XX əsrdə tarixi kulturologiya kulturantropologiya çərçivəsində akulturasiya problemləri - insanların mədəniyyətə cəlb edilməsi, mədəniyyətlərarası dialoq, qarşılıqlı təsir - alimlər tərəfindən geniş müzakirə olunurdu.

Bu sahədə görkəmli amerikan alimi Çarlz Horton Kulinin (1864-1929) xidmətlərini xüsusilə qeyd etmək lazımdır. Kuli Miçiqan universitetinin professoru və Amerika sosioloji cəmiyyətinin prezidenti idi. Onun bir alim kimi formalaşmasına Kont, Spenser və Darvinin ideyaları güclü təsir göstərmişlər. Kulinin elmi fəaliyyətinin əsas istiqamətləri - fərd və cəmiyyət, sosiallaşma və şəxsiyyətin formalaşması problemlərini əhatə edirdi. Kuliyə görə cəmiyyət - üzvi bütövlük dinamikasına malikdir, psixososial xarakter daşıyır və kommunikasiyaya əsaslanır. Sosial idrakın əsası isə alim introspeksiya və anlama metodlarını göstərirdi. Cəmiyyətin baza elementləri - ilkin və törəmə sosial qruplardır. Bu qrupların fərqləri onların insana sosiallaşdırıcı təsirindədir.

İlkin qrupları (ailə, qonşular, uşaq qrupları və s.) xarakterizə edən əsas keyfiyyətlər - onlarda olan qarşılıqlı münasibətlərin nisbi sabitliyi, şəxsiyyətlərarası qeyri-formal əlaqələrdir. Alim göstərir ki, məhz bu qruplar sosiallaşmada, sabit sosial norma və dəyərlərin interiorizasiyasında aparıcı rol oynayırlar.

Törəmə qruplar isə - ictimai institutlardır (Kuli onlara sinifləri, partiyaları və millətləri aid edirdi). Bu sosial strukturda insanların qarşılıqlı əlaqələri normalaşdırılmış və simasız xarakter daşıyır.

Şəxsiyyəti Kuli insanın ona qarşı ətrafdakıların fikirlərinə psixi reaksiyalarının məcmusu kimi səciyyələndirirdi. Alimə görə, şəxsiyyətin inkişafı və sosiallaşması ünsiyyət prosesində baş verir, ünsiyyətin isə əsas vasitəsi - dildir.

Şəxsiyyətin inkişafı və formalaşması prosesinin mexanizmini o, "güzgülü Mən" nəzəriyyəsində aşkarlamışdı. Bu nəzəriyyəyə görə, insanın özü haqqında təsəvvürləri onun başqalarının təsəvvürlərinə görə necə olmasından və bir qədər "Mən" hissinin əlavə edilməsi nəticəsində formalaşır.

Bu nəzəriyyə, sosial qarşılıqlı fəaliyyətdə refleksiyanın rolunun həddindən artıq şişirdilməsinə baxmayaraq, sosiallaşma problemlərinin tədqiqi işində böyük rol oynayırdı.

Kollektiv davranışının analizində Kuli ictimai fikrin və qanunun, habelə iqtisadi amillərin daşıyıcıları olan siniflərin mövcudluğunu qeyd edirdi. O, həmçinin liberal mövqedən kapitalist cəmiyyətini, sənayeləşdirmə və urbanizasiyanın nəticələrini tənqid edirdi. Kuli sosial psixologiyanın banilərindən biri sayılır. Eyni zamanda, metodologiyanın və nəzəri sxemlərin məhdudluğu nəticədə alimi psixoloji reduksionizmə gətirmişdi.

İngiltərə sosial antropologiya məktəbi mifoloji məktəbinin ənənələrini inkişaf etdirərək, akulturasiya prosesinin metodologiyasını işləyib hazırlamışlar. Amerika antropoloji məktəbi də akulturasiya probleminə dair tədqiqatlarda müəyyən uğurlar əldə etmişdi.

Şübhəsiz ki, akulturasiya, ayrı-ayrı mədəniyyətlərin yaxınlaşmasını, qovuşması və beləliklə müxtəlif - bəzən hətta əsas parametrlər baxımından bir-birinə uzaq olan xalqların mədəni sərvətlərinin qarşılıqlı zənginləşdirilməsini təmin edir və beləliklə də pozitiv proses kimi qiymətləndirilməlidir.

Cəmiyyətdə mədəniyyətin rolu, mədəniyyətin insanların mənəvi təkamülü prosesində yeri və mövqeyi

məsələlərinə dair elmdə müxtəlif fikirlər özünü göstərməkdədir.

Amerikan alimləri Ç.Lamsden və E.Uilson insan zəkasının və mədəniyyətlər müxtəlifliyinin meydana gəlməsini genetik baxımdan əsaslandırmağa çalışırlar. Onlar belə bir qənaətə gəlmişlər ki, genetik inkişafla mədəni inkişaf arasında müəyyən qarşılıqlı fəaliyyət formaları mövcuddur. Alimlər fərdi əqli inkişafla mədəni inkişaf arasında və eyni zamanda, mədəni inkişafla genetik evolyusiya arasındakı əlaqələri göstərirlər. Onların fikrinə görə, mədəni evolyusiya üçün aşağıdakı dörd əsas elementin olması vacibdir:

1. sadə təlim üçün vacib olan qabiliyyətlər;
2. təqlid üçün vacib olan qabiliyyətlər;
3. bilavasitə təlim üçün vacib olan qabiliyyətlər;
4. simvollar və abstraksiyalar yaradılması üçün vacib olan qabiliyyətlər.

Bu elementlərin, yaxud qabiliyyətlərin müxtəlif kombinasiyaları, Lamsden və Uilsonun fikrinə görə, mədəni inkişafın beş səviyyəsini müəyyən etmək üçün əsas verir - iki akulturasiya səviyyəsi, iki protokulturasiya səviyyəsi və nəhayət, eukulturasiya səviyyəsi. Bu qabiliyyətlərin hər hansının (yaxud bir neçəsinin) daşıyıcısı olan canlı mədəni inkişafın müəyyən səviyyəsinə aid edilə bilər. Lakin yalnız insan eukulturasiya (eukulture - yaxşılaşdırılmış mədəniyyət) səviyyəsinə yüksəlməyə qadirdir.

Alimlərin təbirincə, insan unikal bir qabiliyyətə malikdir və məhz bu qabiliyyət onu hətta mədəni baxımdan yüksək protokulturasiya səviyyəsində olan heyvanlardan ayırır və mədəniyyətin ali səviyyəsinə çatmaq üçün imkan yaradır. Bu səviyyəni alimlər "reifikasiya" (reifikation) adlandırırlar.

Bu qabiliyyət simvolların yaradılması qabiliyyətinin təsiri nəticəsində qüvvətlənir və beləliklə, insan emosiyalarını hərəkətə gətirir. Nəticədə insan gerçəklikdə baş verən hadisələri yadda saxlayır, onların təsnifatını yaradır, onlar haqqında informasiyanı başqa adamlara ötürmək imkanları əldə etmiş olur.

Fərdi inkişaf nəticəsində insanlar öz proqramlarını reallaşdırmaq imkanı əldə edirlər. Lamsden və Uilson mədəniyyətin vahidi olan "kulturgen" anlayışını təklif edirlər.

Alimlər sivilizasiyanı yazının, incəsənətin, dinin, yüksək səviyyədə inkişaf etmiş texnikanın zəminində sosial mövcudluğunun ən inkişaf etmiş forma kimi qiymətləndirirlər. Eyni zamanda onlar olduqca paradoksal bir nəticəyə gəlirlər: bu cür sivilizasiya üçün mədəniyyət heç də vacib deyil.

Təəssüflə qeyd etməliyik ki, "qeyri-ənənəvi" sosiobiologiya əsasında yaradılan bu cür "nəzəriyyələr" "insan və mədəniyyət", "cəmiyyət və mədəniyyət" probleminin həll edilməsi sahəsində heç bir müsbət nəticə verə bilməz.

İnsanın mədəniyyətə cəlb olunması problemi, ilk növbədə, olduqca mühüm məsələ olan şəxsiyyətin hərtərəfli (harmonik) inkişafı məsələsilə bağlıdır.

Burada şəxsiyyətin hərtərəfli inkişafı məsələsilə şəxsiyyətin çoxtərəfli inkişafı məsələsi arasında fərqlərin qeyd edilməsini lazım bilirik. Sosialist-utopistlərdən ta indiki dövrə qədər fəaliyyət göstərən bəzi tədqiqatçılar şəxsiyyətin hərtərəfli inkişafı probleminin həllini insanın mümkün qədər çox fəaliyyət növlərinə yiyələnməsində görürlər. Bu, əlbəttə, yanlış fikirdir, çünki çoxtərəflilik - yalnız kəmiyyət göstəricisidir və o, cəmiyyətdə əmək bölgüsü ilə müəyyən olunur.

Ondan fərqli olaraq, hərtərəflilik - insanın cəmiyyətdəki mövqeyini və rolunu keyfiyyəti baxımından səciyyələndirən anlayışdır. Hərtərəfli inkişaf etmiş adam - öz fərdiyyatı ilə bu fərdiyyat reallaşdırılan obyektiv şəraitlə üzvi vəhdətlə xarakterizə olan adamdır.

Əlbəttə, şəxsiyyətin çoxtərəfli inkişafı və hərtərəfli inkişafı arasında müəyyən qarşılıqlı əlaqələr mövcuddur. Lakin, eyni zamanda, onlar şəxsiyyətin prinsipial baxımdan xeyli fərqli aspektləridir.

Buradan belə bir nəticə çıxır ki, şəxsiyyətin hərtərəfli inkişafı problemi, bu və ya digər dərəcədə pedaqogika ilə bağlı olsa da, o, ilk növbədə, sosial problemdir. Bu heç də tərbiyə işinin əhəmiyyətini azaltmır. Əksinə, ictimai inkişaf, xalqın mədəni səviyyəsinin yüksəlməsi nəticəsində təlim-tərbiyə məsələləri daha böyük aktuallıq kəsb edir və geniş miqyas alır.

İnsanın hərtərəfli harmonik formalaşması müasir inkişaf etmiş cəmiyyət şəraitində uzaq məqsəddən praktik məsələyə çevrilir. Hər bir cəmiyyətin inkişaf dialentikasını səciyyələndirən əsas cəhətlərdən biri ondan ibarətdir ki, onda baş verən radikal müsbət dəyişikliklərin səbəbi, bir tərəfdən, ictimai sferaların, insan fəaliyyətinin ayrı-ayrı sahələrinin differensiasiyası, digər tərəfdən isə, - onların inteqrasiyası, sıx qarşılıqlı fəaliyyətidir.

Cəmiyyətdə paralel olaraq iki proses baş verir: yeni mədəni dəyərlərin yaradılması və mədəni irsin nəsildən nəslə ötürülməsi. Bu problemin mürəkkəbliyi, bir tərəfdən cəmiyyətin fəaliyyət miqyasının genişlənməsi, digər tərəfdən isə toplanmış mədəni dəyərlərin həcmilə bağlıdır. Bəşəriyyətin əsrlər və minilliklər ərzində yaratdığı mədəni irs yetişməkdə olan nəslə on-on beş il ərzində çatdırılmalıdır, çünki mədəni varislik prosesini dayandırmaq olmaz. Əks təqdirdə mədəniyyətin deqradasiyası və nəticədə cəmiyyətin dağılması təhlükəsi bizi gözləyir.

İctimai enerjinin müəyyən hissəsi fəaliyyət formalarının inkişafına və təkmilləşdirilməsinə, digər hissəsi isə - ailə, məktəb və digər sosial institutlar vasitəsilə - şəxsiyyətin sosiallaşması mexanizmlərinin hərəkətə gətirilməsinə doğru yönəldilir. Bu mexanizmlər vasitəsilə vacib vərdişlər, biliklər və mədəni normaların mənimsənilməsi təmin olunur.

Mədəni varisliyi prosesinin bu iki tərəfi - mədəniyyətin ötürülməsi və onun mənimsənilməsi bir-birilə sıx surətdə bağlı bir-birindən asılı olan tərəflərdir. Mədəni varislik avtomatik surətdə baş verən proses deyil. O, şəxsiyyətin inkişafının elmi səviyyədə işlənmiş forma və metodlar, istiqamət və mexanizmləri sisteminə əsaslanan tərbiyə və təhsil konsepsiyasına əsaslanmalıdır. Bununla bağlı bir çox metodoloji məsələlər ortaya çıxır. Onların bəziləri hətta indiyədək öz həllini tapmamışlar.

İlk növbədə, şəxsiyyətin inkişafını və onun mühitlə qarşılıqlı fəaliyyətini əks etdirən model işlənməlidir. Şəxsiyyət nəzəriyyəsinin bu günkü vəziyyəti isə bu cür modelin işlənməsi üçün hazır olmadığını nümayiş etdirir.

Mədəniyyətin mənimsənilməsi - kommunikativ xarakter daşıyan və kommunikativ fəaliyyətin bütün əsas qanunauyğunluqlarını əks etdirən prosesdir. Burada mədəni informasiyanın kommunikatoru və resipienti bir-birinə təsir göstərirlər. Bütün yaş qruplarında tərbiyə prosesinin uğurları bilavasitə tərbiyə edənlə tərbiyə olunanın arasında münasib kommunikasiyanın yaradılması və həyata keçirilməsilə bağlıdır.

Bu işdə şəxsiyyətin sosial və mədəni təkamülünün mühüm istiqamətlərinin müəyyənləşdirilməsi məsələsi - mühüm məsələlərdəndir. Bu istiqamətlərin hər biri - fərdin sosial-mədəni həyatın hansısa səviyyəsinə cəlb etməyi əks etdirməlidir.

Bütün insanlar üçün xas və vacib olan ümuminsani keyfiyyət və potensiyalarının əldə edilməsi prosesini hominizasiya adlandırırlar. Bu mərhələdə də insan yalnız mədəniyyət vasitəsilə inkişaf edib müəyyən səviyyəyə çatmağı əldə edə bilər.

Mədəni irsin aktuallaşdırılmış hissəsinin mənimsənilməsi fərdin sosiallaşması - onun müəyyən sosial qrupun həyat şəraitinə uyğunlaşdırılmasını təmin edə bilər. Sosiallaşma prosesində insan əsas rol və normaları, sosial xarakterin əsas keyfiyyətlərini mənimsəyir. Sosiallaşma zamanı həmçinin təfəkkür, nitq, intonasiya və mimikanın standart formalarının mənimsənilməsi və möhkəmləndirilməsini, tipik situasiyalara reaksiyaların formalaşmasını nəzərdə tutur. Şəxsiyyətin mədəni irsə, mədəniyyətə cəlb edilməsi "inkulturasiya" terminilə adlandırırlar. (Bu termini elmə M.Herskovits daxil etmişdi). İnkulturasiya zamanı insanın mədəniyyəti mənimsənilməsi prosesi, bir tərəfdən, fərdi istək və maraqlar, digər tərəfdən isə - insan üçün xas olan idraka və mənəvi-estetik zənginləşməyə qarşı meyllər müəyyən edir. Burada qeyd etmək lazımdır ki, xarici dillərin öyrənilməsi, insanın peşəsi üçün vacib olmayan biliklərin əldə edilməsi, digər xalqların mədəniyyətlərilə tanışlıq sosiallaşmanın vacib elementləri sayıla bilməz.

İnsanın mənəvi təkamülündə fərdiləşmə prosesi də böyük əhəmiyyətə malikdir. Bəzən onu özünü reallaşdırma da adlandırırlar. (Qeyd etmək lazımdır ki, bu proseslərin hamısı bir-birilə bağlı olan proseslərdir və ümumi bir prosesin tərkib hissələridir.) Onun məqsədi - şəxsiyyətin qabiliyyət və keyfiyyətlərin xüsusi kultivasiyasıdır. Fərdiləşməyə qarşı tələbat yetgin insan üçün səciyyəvidir. Müəyyən hüdudlarda o, cəmiyyət tərəfindən stimullaşdırılır və sosiallaşma prosesində tətbiq olunur. Lakin ayrı-ayrı cəmiyyətlərdə şəxsiyyətin fərdi inkişafı və özünəməxsusluğuna qarşı tələblər fərqlidir. Eyni zamanda, fərdi keyfiyyətlərin əks etdirilməsi imkanları da müxtəlifdir.

Fərdiləşmə inkulturasiyadan da fərqlənir. Məsələ ondadır ki, mədəni maraqların zənginliyi, bilik və bacarıqların toplanması özlüyündə fərdiləşməni təmin etmir. Digər tərəfdən, mədəniyyətin hədsiz dərəcədə mənimsənilməsi müəyyən mənada fərdiləşməyə zidd olan prosesdir, çünki fərdiləşmə məhz konkret adamın istedadlarının inkişaf etdirilməsini, onu fərdi mədəni keyfiyyətlərinin formalaşmasını nəzərdə tutur.

Fərdiləşmə bütövlükdə şəxsiyyəti əhatə edir, onun bütün tərəflərinin harmonik inkişafını nəzərdə tutur. Lakin, buna baxmayaraq, o, ekzistensial strukturların mədəni dolğunluğunda özünü daha parlaq göstərir. Fərdiyyat şəxsiyyətin unikal keyfiyyətlərində deyil, ilk növbədə, onun ümummədəni dəyər yönümlərindədir.

Yeri gəlmişkən qeyd edək ki, fərdiləşmə mərhələsinə bütün fərdlər yüksələ bilmir.

İnsanın hərtərəfli, harmonik inkişafı məqsədləri güdən tərbiyənin elmi sisteminin yaradılması üçün şəxsiyyətin formalaşması prosesi baş verən əsas ictimai sferaların müəyyənləşdirilməsi olduqca böyük əhəmiyyət kəsb edən məsələdir. İndiyədək şəxsiyyətin tərbiyə olunması problemin həlli yalnız məktəb və təlim-tərbiyə prosesinin həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər müəssisələrin tərbiyəedici təsirinin nəzərə alınması üzərində qurulur.

Bunun nəticəsində isə bütün tərtib olunan proqramların səmərəliliyini sıfra endirmiş olur. Bu işdə fərdin hər hansı sosial-mədəni mühitə daxil olmasının səviyyəsi və xarakteri, bu mühitin onun qarşısına qoyduğu məqsədləri, tərbiyəedici təsirlərin şəxsiyyətin tələb və ideallarına uyğun olub-olmaması mütləq nəzərə alınmalıdır. Bütün tərbiyə məqsədləri güdən təsirlərin nəticəliliyi tərbiyə obyektinin vəziyyəti, onun inkişaf səviyyəsi, mənəviyya-

tının tendensiyaları ilə bilavasitə bağlıdır.

Mədəni mühiti onun tərbiyəedici, formalaşdırıcı təsirləri baxımından təhlil edərkən, bir sıra bir-birindən fərqli olan sferaları bu və ya digər dəqiqlik səviyyəsində müəyyən etmək olar. Onların hər biri şəxsiyyətə təsiri üsulları ilə səciyyələnir. Bu üsullar müəyyən baxımdan səmərəli, digər baxımdan isə səmərəsiz ola bilər. Hər hansı informasiyanın insan üçün əhəmiyyəti mütləq xarakter daşımır. Bu sahədə müəyyən prinsipial fərqlər mövcuddur və onlar nəzərə alınmalıdır.

Şəxsiyyətin inkişafı prosesində ailənin rolu danılmazdır. Ailə - insanın doğulduğu gündən yaşayıb tərbiyə aldığı ilkin kiçik qrupdur. İnsanın psixikası həssas və plastik olduğu dövrlərdə ailənin rolu xüsusilə böyükdür. İnsan üçün ailə - cəmiyyətin ona bilavasitə formalaşdırıcı, tərbiyəedici təsir göstərən ilkin modelinə, orada formalaşmış və hökm sürən münasibətlər isə - şəxsiyyətlərarası münasibətlərin nümunələrinə çevrilir. Bütün bu təsirlər nəticəsində insanda mühüm və ictimai baxımdan vacib olan şəxsiyyət komponentləri formalaşır.

Lakin ailənin şəxsiyyətin formalaşdığı sfera kimi müəyyən çatışmazlıqları da mövcuddur. İlk növbədə, qeyd etmək lazımdır ki, ailələrin mədəni səviyyələri eyni deyil. Bəzi ailələrlə hökm sürən münasibətlər tərzinin uşağın tam mənada şəxsiyyət və fərdiyyat kimi, cəmiyyətin üzvü kimi formalaşmasına olduqca mənfi təsirləri müşahidə olunur. Digər tərəfdən, uşaq üçün daxili münasibətlərin fonu olan ailənin emosional atmosferi sabit deyil. Bu qeyri-sabitlik uşağın mənəvi, bəzi hallarda isə hətta fiziki təkamülü və inkişafına güclü təsir göstərir.

Tərbiyə və təhsil müəssisələr sisteminin əsas vəzifəsi uşaq və gənclərə sosial baxımdan vacib olan professional biliklərin çatdırılmasından və vərdişlərin formalaşdırılmasından ibarətdir. Bu vəzifələri onlar bu ya digər səviyyədə yerinə yetirirlər. Lakin kütləvi təhsil müəssisələri təlim-tərbiyə prosesinin fərdiləşdirilməsi istiqamətində böyük bəzən isə öhdəsindən gələ bilmədikləri çətinliklərlə rastlaşır. Bu müəssisələrdə həmçinin sağlam qeyri-formal münasibətlərin yaradılması üçün lazım olan şəraiti yaratmaq çətindir.

Mədəni-maarif müəssisələrinin də şəxsiyyətin təkamülü və inkişafı sahəsindəki rolu danılmazdır. Klub müəssisələri, kütləvi muzey və kitabxanalar mədəniyyətin elmi və bədii dəyərlərin çatdırılması sahəsidə güclü təsirə malikdirlər. Bu mədəniyyət ocaqlarında mədəni dəyərlərin mənimsənilməsi mədəni informasiyanın daşıyıcıları ilə bilavasitə təmasın yaradılması nəticəsində baş verir. Bu isə şəxsiyyətin inkişafı prosesində böyük və əvəzedilməz bir qüvvədir. Lakin ölkəmizdə bu müəssisələrin bu günkü vəziyyəti heç də qənaətbəxş sayıla bilməz. Kənd yerlərində vəziyyət daha gərgindir. Burada, demək olar ki, asudə vaxt şəraitində mədəni təsirlərin qurulması sahəsində fəaliyyət göstərən və bu işdə yeganə dayaq məntəqələri olan bu müəssisələr bu gün dərin böhran vəziyyətindədir. Onun aradan qaldırılması tərbiyə sahəsində qarşımızda duran mühüm vəzifələrin yerinə yetirilməsinə müsbət təsir göstərə bilər.

Təhlil etdiyimiz institutlaşdırılmış və yarıinstitutlaşdırılmış müəssisə və təsisatlardan başqa şəxsiyyətin formalaşdırılmasına müxtəlif qeyri-formal qrupların da (uşaqların oyun qrupları, yeniyetmələr kollektivləri və s.) təsiri danılmazdır. Hərtərəfli inkişafın təmin olunması üçün şəxsiyyət müxtəlif sosial qrupların həyatında iştirak etməlidir. Buna görə də fərqli qrupların, fərqli dəyərlər sistemlərinin insana təsiri prosesində proporsionallığın, mütənasibliyin gözlənilməsi vacib şərtlərdəndir.

**Gələcəyimizin təmin olunması üçün mürəkkəb, zəngin və dinamik mədəni mühitin yaradılması - qarşımızda duran mühüm, mürəkkəb lakin, eyni zamanda, qaçılmaz məsələdir.**

## Ədəbiyyat


1.Ортега-и-Гасет Х. Дегуманизация искусства. М.1991.


## SUMMARY


### Research of development by the person of culture with Western culturologists

In Western culturologists a problem of development of culture the person investigated{researched} such visible scientists as C.Kuli, H.Ortega- and-Gasset, C.Lamsden and E.Uilson, M.Herskovich and many other things. Process of development of culture of the socicultrologi's environments the individual is designated in culturologists by concepts "socialization" and "inculturologi's".

From the earliest childhood as a result of development of culture the person gets necessary for normal socicultrologi's lives adequate skills. The individual has an opportunity to use received knowledge and skills for the decision own vital problems.